ELM

16 oktyabr / 2020

# Azərbaycan arxeologiyasının fəaliyyət istiqamətlərinin təkmilləşdirilməsinə yeni baxış

## Arxeoloji mənbələrə görə mədəni proseslərin məzmunu

**Tədqiqatlar zamanı istifadə olunan üsullardan biri arxeoloji mənbələrə əsaslanan tarixi proseslərin yenidən bərpasıdır. Qədim cəmiyyətlərin mədəni proseslərinin öyrənilməsi yazıya qədər ki tarixin mövcud mənbə bazasına əsaslanır.**

Adətən arxeoloji tədqiqatlar zamanı yeni bir texnologiyanın və ya cəmiyyətdəki fəaliyyətin yeni bir modelinin meydana çıxması mədəniyyətin formalaşmasına xidmət edən başlıca amil rolunda çıxış edir. Elmdə təkamül nəticəsində mədəniyyətlərin müxtəlif mərhələlərinin necə formalaşması mühüm tədqiqat mövzularından biridir. Arxeoloji artefaktlar həm mədəniyyət, həm də təbii şəraitləri əhatə edən əlaqəli hadisələrin bir hissəsi kimi qəbul edilir. Qazıntılar zamanı əldə edilmiş arxeoloji məlumatların təhlili, mövcud və ya yeni fərziyyələrin rotasiyasının əsas meyarıdır.

Azərbaycan ən qədim dövrlərdən etibarən Avrasiya məkanında baş vermiş tarixi proseslərin tərkib hissəsi olaraq, özünün məxsusi özəllikləri ilə seçilən zəngin maddi mədəniyyətə malikdir. Ətraf mühitin məskunlaşma proseslərinə təsiri ümumən ərazimizdə biri-birindən fərqli, lakin ardıcıl olan qədim mədəniyyətlərin mövcudluğunu göstərən maddi mədəniyyət abidələrində əks olunur. Nəticədə, tədqiqatçılar yazıya qədərki tarixin araşdırılması zamanı uzun müddətli mədəni proseslərin müxtəlif səbəblərdən kök götürən və müxtəlif yekunlara gətirib çıxarmış tendensiyaları ilə üzləşir. Tarixi proseslərin bərpası zamanı bir sıra vacib atributları ilə seçilən arxeoloji mədəniyyətlər əslində, qədim dövrdə önəmli rolda olan konkret əhalini əks etdirir. Məlumdur ki, elmi dildə arxeoloji mədəniyyət anlayışının arxasında öz dövrünün mükəmməl formalaşmış hər hansı bir formada (kiçik saylı, nisbətən genetik yekcins populyasiyanı ehtiva edən "nəsil" və ya "nəsillərin birliyi/qəbilə", və ya böyük saylı qohum dilli və ya müxtəlif dilli, amma oxşar dini baxışlı populyasiyanı ehtiva edən tayfa ittifaqı və ya "etnos" şərti adı ilə göstərilən) insan birliyinin durması, yazılı tarix dövründə artıq iri etno-siyasi (Şimali Azərbaycan ərazisində iskitlər, xristianlığa qədər ki albanlar, alan-sarmatlar/hunlar) və ya dini-mədəni sistemlərin mövcudluğu (Şimali Azərbaycan ərazisində xristian Qafqaz Albaniyası, musəvi Xəzər imperiyası, İslam dini-mədəni dövrü tarixi dövlətləri) qəbul edilir.

Son illər ərzində yeni elmi yanaşmaları istifadə etməklə aparılmış tədqiqatlar nəticəsində, Azərbaycanda dövrlər üzrə mədəni proseslərin istiqamətləri və məzmununu tədqiq edən arxeoloji mədəniyyətlərin daşıyıcılarının maddi mədəniyyəti əsas tədqiqat obyekti olub onların biri-birinə bağlılığı və fərqli cəhətlərinin ümumi mədəni proseslərə təsirinin müəyyən edilməsi istiqamətində maraqlı və əsaslı maddi dəlillər əldə olunmuşdur.

## Tədqiqat üsullarının xarakteri

Arxeologiya sahəsində araşdırmalar aşkar olunmuş arxeoloji abidələr və maddi-mədəniyyət nümunələri əsasında aparılır. Bu baxımdan arxeoloji komplekslərin təyinatına uyğun (qədim yaşayış yerləri, antik və orta əsr şəhər yerləri, qəbir abidələri və s.) tədqiqatçılar tərəfindən düzgün qazıntı üsullarının seçilməsi, qazılmış abidədən aşkar olunmuş materialların dəqiq fiksasiyası və onların müqayisəli təhlili arxeologiya elm sahəsinin əsas metodoloji bazasını təşkil edir.

Çöl-tədqiqatları zamanı əsaslı öyrənilmiş arxeoloji abidələrin (qədim yaşayış yerləri, müxtəlif dövrə aid nekropollar, şəhər yerləri) dəqiq elmi mahiyyətinin hərtərəfli öyrənilməsi məqsədilə, qazıntılar zamanı aşkar olunmuş və məxsusi özəllikləri ilə seçilən maddi-mədəniyyət nümunələrinin növünə görə hər birinin təyinatına uyğun (keramika məmulatı, daş alətlər, memarlıq və inşaat texnikası, paleobotanik və paleozooloji materiallar, paleoantropoloji qalıqlar və s.) kompleks təhlili, müxtəlif elmlərin kəsişməsində aparılan arxeoloji tədqiqatlar, yəni arxeometrik araşdırmalar sırasına aid olaraq müasir arxeologiya elminin yeni çağırışlarına cavab verir. Müasir gündəmdə dünya elmi ictimaiyyəti tərəfindən multidissiplinar tədqiqatlar "arxeometriya" və yaxud "post prossesual" arxeologiya adlanır.

Bunun nəticəsində mütəmadi arxeoloji tədqiqatlar əsasında toplanmış materialların dəqiq təhlili mümkün olur. Ortaya çıxan ümumi arxeoloji nəzəri problemlərin fonunda yeni nəzəri konsepsiyalar meydana gəlir. Aktual olan mövzular müəyyən edilir və ümumi tarixi proseslərin bərpasına və konseptual məsələlərin arxeologiya elmində ön planda olmasını təmin edir.







Bütün bunların həyata keçirilməsi məqsədilə, əvvəlcədən elmi müəssisə tərəfindən fundamental elmi problemlərin həll edilməsinə şərait yarada biləcək arxeoloji abidələr qazıntı üçün seçilirlər. Bunun əsasında elmi tədqiqat işlərinin istiqamətləri müəyyənləşdirilir. Bundan sonra ekspedisiyalar əsasən professional bilik və tədqiqatçı bacarığı və təcrübəsi olan mütəxəssislərdən ibarət tərkibdə təşkil olunur və elmi-tədqiqatın əsas metodları və elmi hesabatın strukturu müəyyən edilir.

Qazıntılar arxeoloji abidələrin çöl tədqiqatlarını əsas və ən mühüm formasıdır. Qazıntıların məqsədi abidələrin hərtərəfli tədqiqi, dəqiq qeydiyyatı və elmi dəyərləndirilməsindən ibarətdir. Qazıntılar abidələrin topoqrafiyasının və stratiqrafiyasının, mədəni təbəqəsinin, tikililərinin, maddi mədəniyyət nümunələrinin və s. tam səciyyəsini müəyyən edilməsini nəzərdə tutur. Bundan əlavə stasionar qazıntı işlərindən əvvəl abidənin özünün və onun yerləşdiyi ərazinin topoqrafik planından, hərtərəfli foto materiallarından və s. ibarət məlumatlar bazası mövcud olmalıdır.

Həmçinin təbiət elmləri vasitəsi ilə əlavə məlumatların əldə edilməsi imkanı olduğu abidələrdə tədqiqat işləri həmin sahələr üzrə mütəxəssislərin (torpaqşünas, geoloq, geomorfoloq, paleobotanik və s.) iştirakı ilə həyata keçməlidir. Qədim yaşayış yerlərinin bütün növlərində (düşərgə, məskən, şəhər) qazıntı işləri kvadratlar, təbəqələr və laylar üzrə həmin yaşayış yerlərinin bütün xüsusiyyətlərinin izlənilməsi şərti ilə aparılır. Qazıntının laylar üzrə tərtib edilən planında bütün tikili, ocaq, quyu yerləri və digər obyektlər göstərilməlidir. Aşkar edilən bütün obyektlərin yerləşmə dərinliyi nivelir və ya teodolit vasitəsilə qeyd edilir.

Çoxtəbəqəli abidələrin qazıntısı zamanı növbəti təbəqəyə keçilməsi yalnız üstdəki təbəqənin lazımi səviyyədə geniş qazıntısı ilə bütün detalların öyrənilməsindən sonra baş verə bilər.

Kurqan örtüklərinin tədqiqi zamanı bu örtüklərdə yerləşən bütün obyektlərin (sallama qəbirlər, qurbangahlar, ayrı-ayrı tapıntılar və s.) örtüyün konstruksiyası və tərkibi, torpaq tökümünün səviyyəsi, örtüyün tərkibindəki digər obyektlər hərtərəfli şəkildə öyrənilməlidir.

Bütün tip abidələrin qazıntısı zamanı reperlə əlaqəli 0 nöqtədən səthin (qazıntının və ya kurqanın), bütün tikililərin, layların, ocaq yerlərinin, qəbirlərin, qurbangahların və s. nivelirləşdirilməsi mütləq şəkildə həyata keçirilməsi təmin edilməlidir.

Çöl gündəliyinin tərtib edilməsi ilə yanaşı qazıntı işlərinin bütün nəticələri çertyoj və foto vasitəsi ilə sənədləşdirilməlidir. Bütün çertyojlar (qazıntının planı və kəsiyi, stratiqrafik profili, kurqanların planı və profili, qəbirlərin planı və kəsiyi və s.) bilavasitə qazıntı sahəsində tərtib edilməli və maksimum şəkildə bütün detallar, o cümlədən təbəqələrin yerləşmə ardıcıllığı, onların hündürlük nöqtələrindən ölçülər, torpaq, kül və digər izlərin strukturu, rəngi, tapıntıların planda yerləşdirilməsi, onların şəraiti və yerləşmə dərinliyi, qəbirlərdə skeletin və qəbir avadanlığının vəziyyəti və s. dəqiqliklə əks edilməlidir. Qazıntıların planı, kəsiyi və profili 1:20 ölçüsündən az olmayaraq vahid miqyasla yerinə yetirilir. Qəbirlərin planı və kəsiyi 1:10 ölçüsündən az olmayan miqyasla tərtib edilir. Qəbirlərin planında profillərdə qeyd edilmiş bütün detallar öz əksini tapmalıdır. Qazıntının bütün prosesi, abidənin ümumi görünüşü, qazıntı üçün seçilmiş sahə, aşkara çıxarılmış hər bir təbəqə və obyektlər: qəbirlər, tikililər və onların detalları, stratiqrafik profillər fotoya alınmalıdır.

***Mövzular***

## Tarixə qədərki dövr (Prehistory):

Paleolit, Mezolit, keramikaya qədər və keramikalı Neolit: Azərbaycanın erkən arxeoloji mədəniyyətləri Ön Asiyanın erkən əkinçi mədəniyyətləri sistemində: oturaq həyat tərzli erkən əkinçi və maldar tayfaların mədəniyyətləri; dini inanclar, metal və metallurgiya; demoqrafiya; miqrasiyalar; transmisiya (ötürülmə); əlaqələr və s.

- Xalkolit (eneolit) dövrü: erkən metallurgiya texnologiyasının təhlili, son xalkolit əkinçi-maldar tayfaların Ön Asiya və Şimali Avrasiya həmdövr tayfaları ilə əlaqələri, iqlim dəyişkənliyin həyat tərzinə təsiri, öncəki son neolit əhalisi ilə bağlılığın müəyyən edilməsi

- Tunc və ilk dəmir dövrləri: əvvəlki son xalkolit mədəniyyətlə ilk tunc dövrü mədəniyyəti daşıyıcılarının bağlılığı məsələləri, ilk tunc dövrü "Kür-Araz", "Azərbaycanın orta tunc dövrü "Üzərliktəpə" və son tunc "Xocalı-Gədəbəy" mədəniyyətləri abidələrinin lokal xüsusiyyətləri, yayılma arealı, qonşu regionlardakı həmdövr mədəniyyətlərlə əlaqələr; region və qonşu bölgələr kontekstində müxtəlif tipli qəbir abidələri (kurqanlar, daş qutu qəbirlər, torpaq qəbirlər və s.) və dəfn adətləri və onların xarakterik xüsusiyyətləri. Arxeometrik tədqiqatlar: Aqrar təsərrüfat, metallurgiya və d. istehsal sahələrinin xarakterik xüsusiyyətlərinin (bio-kimyəvi və paleo-metal analizlər) təhlili. Qədim sakinlərin arxeo-genetik materialı (həmdövr populyasiyalarla qohumluq əlaqələrinin müəyyənləşdirilməsi), qida rasionu, gender-yaş münasibətləri, flora və fauna mühiti barədə tədqiqatlar, Avrasiyadakı proto-iskit və proto-sak arxeoloji mədəniyyətlərlə paralellərin mövcudluğu problemi

## Qədim tarixi dövr (klassik arxeologiya)

İlk dəmir dövrü və antik dövr ("İskit", Manna, Midiya, Atropatena, erkən antik Albaniya dövrü): qədim yaşayış məskənləri, qəbir abidələri, paleoantopoloji materialın təhlili, istehsal texnologiyalarının (əmək, silah, zinət əşyaları və s.) xarakteri, dövlətçiliyi göstərən materiallar, sarmat və erkən hun arealı.

- Antik və ilk orta əsrlər dövrlərində Albaniyanın və Atropatenanın maddi mədəniyyəti: tikinti və memarlığı; şəhərlər və sənətkarlığ; pul zərbi və dövriyyəsi; din və ideologiya.

- Böyük İpək yolu: Karvan - ticarət yollarının istiqamətləri

- İlkin şəhər mədəniyyətləri, onların multidissiplinar tədqiqi və dövlətçilik ənənələri

## İslam mədəniyyəti arxeologiyası (islamic archaeology)

İslam mədəniyyəti və Azərbaycan, orta əsr Azərbaycan şəhərləri kontekstində, dövlətçilik (islam arxeologiyası) məsələləri Qafqazın bütün orta əsrlər abidələrində parlaq şəkildə öz əksini tapmışdır. Bu baxımdan dünya elmi ictimaiyyətinin Qafqazın orta əsrlər dövrünü "islam arxeologiyası" mərhələsi adlandırılması təsadüfi hal daşımayaraq faktik maddi dəlillərə əsaslanmışdır.

Bu baxımdan, əsas məqsəd ölkəmizdə arxeoloji və etnoqrafik tədqiqatların dünya sivilizasiyaları kontekstində yerli və xarici mütəxəssislərin iştirakı ilə, müxtəlif elmlərin qovşağında (multidissiplinar), dünyada mövcud qabaqcıl texnologiyaların tətbiq edilməsi əsasında, innovasiya xarakterli fəaliyyətə üstünlük verməklə əvvəlcədən seçilmiş aktual mövzular üzrə elmi tədqiqat işlərinin aparılması və əldə olunan elmi yeniliklərin dünya elmi məkanına inteqrasiyasının təmin edilməsidir. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu ölkəmizdə arxeoloji tədqiqatların təşkili işini icra edən yeganə rəsmi elmi tədqiqat müəssisəsidir. Hal-hazırda, elmi tədqiqat müəssisəsinin müasir gündəmin tələblərinə əsasən, prioritet mövzulardan ibarət yeni baş plana daxil konseptual mövzuların ətrafında institutun problem şöbələrinin yenidən təşkilinə ehtiyac duyulur.

**Fərhad QULİYEV,**
**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru**